# EKOLOJİ VƏ SİYASİ TƏHLÜKƏSİZLİK RİSKLƏRİNİN KORRELYASİYASI HAQQINDA

**Fuad Hümbətov**

*AR ETSN yanında Milli Hidrometeorologiya Xidməti, Bakı*
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Bakı*
*fuad.humbatov@COP29.az*

Məlum olduğu kimi, günümüzdə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına qlobal miqyasda mane olan əsas təhlükələr, risklər sırasında başlıca yeri qlobal və regional siyasi qarşıdurmalar, müxtəlif miqyaslı hərbi münaqişələr, iqtisadi və maliyyə böhranları, qlobal ekoloji problemlər, habelə yeni pandemiya dalğaları və digər problemlər tutur. Bir sıra hallarda qeyd olunan risklərin korrelyasiyası, yəni qarşılıqlı asılılığı, əlaqəsi müşahidə olunmaqdadır.

Belə ki, məsələn, qlobal geosiyasi oyunçuların dünyanın hər hansı bölgəsində birbaşa və ya dolayı iştirakı ilə baş verən qarşıdurmaların, o cümlədən silahlı münaqişələrin bir çox hallarda qlobal və ya regional miqyasda iqtisadi böhranlara səbəb olması faktları yaxın tariximizdə məlumdur. Bu da məlumdur ki, münaqişələr bir sıra hallarda yeni ekoloji təhlükələr də yarada bilər və ya mövcud olanları öz miqyasına və təsir gücünə görə daha təhlükəli hala gətirə bilər. Bu mənada müasir dünyamızda qeyd olunan risklərin korrelyasiyasının təhlili, qiymətləndirilməsi və onların əsasında ölkədaxili siyasi və beynəlxalq münasibətlərin proqnozlaşdırılması həm nəzəri, həm də praktik cəhətdən böyük əhəmiyyət daşıyır.

Məsələn, ekoloji, energetik və siyasi təhlükəsizlik sistemlərinə olan risklərin korrelyativ əlaqəsinə misal olaraq, hazırda Ukraynada davam edən müharibəni misal göstərmək olar. Belə ki, 2000-ci illərin lap əvvəllərində dünyada siyasi bipolyarlığı bərpa yolunu tutan RF və qərb ölkələri arasında baş verən siyasi və diplomatik qarşıdurmalar sonrakı mərhələdə Avropa İttifaqı və digər qərb ölkələrində ciddi enerji təminatı problemlərinə səbəb oldu. Nəhayət, 24.02.2022-ci il tarixində Rusiya tərəfindən Ukraynada başladılmış olan hərbi əməliyyatlar bölgədə və onun ətrafında ciddi iqtisadi və ekoloji problemlərin yaranması ilə müşayiət olundu. Belə ki, bu hərbi əməliyyatların ekoloji fəsadları sırasında bölgədə biomüxtəlifliyin deqradasiyası, ekosistemin dağılması, havanın keyfiyyətinin korlanması, külli miqdarda istixana qazlarının atılması və s. göstərmək olar. Bunlarla yanaşı, 2023-cü ilin iyun ayının 6-da Dnepr çayı üzərində Kaxovski SES-ə aid su anbarını "maraqlı tərəflər"in partlatması ilə meydana gələn iri daşqın böyük bir ərazinin ekoloji vəziyyətini daha da ağırlaşdırmışdı. Qeyd etmək lazımdır ki, bu siyasi-ekoloji təxribat aktı olan partlayış "Ətraf mühitin dəyişdirilməsi metodlarından hərbi və ya hər hansı düşmən istifadəsinin qadağan edilməsi haqqında" Beynəlxalq Konvensiyanın 1-ci maddəsi ilə qəti qadağan edilmiş ekosid cinayəti kimi təsnif oluna bilər. Belə ki, həmin maddədə birbaşa qeyd edilir ki, **münaqişə tərəfləri** genişmiqyaslı, uzunmüddətli və ya ciddi nəticələrə malik olan, digər iştirakçı dövlətin məhv edilməsi, zərər verməsi və ya ziyan vurması ilə nəticələnən ətraf mühitin dəyişdirilməsi texnikası vasitələrindən hərbi və ya hər hansı düşmən istifadəsində iştirakdan çəkinməlidirlər ([3-10]).

Eyni zamanda məlum olduğu kimi, bu Rusiya-Ukrayna silahlı qarşıdurması qlobal səviyyədə taxıl təminatı və qida təhlükəsizliyi məsələlərinə də ciddi təhlükələr yaratmışdır və bu da regional təhlükəsizlik sisteminə olan risklərin qlobal səviyyədə qida təhlükəsizliyi məsələlərinə təhlükə yaratmasına bariz nümunədir.

Göründüyü kimi, qeyd olunan münaqişə regional xarakter daşımasına baxmayaraq, həm qlobal təhlükəsizlik sisteminə, həm də ekoloji, enerji, qida təhlükəsizliyi sistemlərinə böyük risklər yaradır. Belə ki, bu kimi müharibələr qlobal qida təhlükəsizlyi sisteminə ağır zərbə olaraq bir çox ölkələrin taxıl təminatında, habelə enerji təhlükəsizliyi sistemində mühüm çətinliklərlə müşayiət olunur. Eyni zamanda, buraya hərbi əməliyyatlar zamanı qlobal istiləşməni yaradan xeyli miqdarda istixana qazları tullantılarının atmosferə atılmasını, habelə havanın keyfiyyətinə, ekosistemə vurulan zərərləri, biomüxtəlifliyin deqradasiyasını əlavə etsək, o zaman bu kimi beynəlxalq və ya lokal silahlı münaqişələrin timsalında qlobal siyasi təhlükəsizlik sisteminə olan risklərin qlobal və regional ekoloji, enerji, qida və digər təhlüləsizlik sistemlərinə nə dərəcədə risklər yaratdığını, bir növ "risklərin korrelyasiyası matrisini" formalaşdırdığını aşkar görmək olar.

Bu istiqamətdə son illər meydana gəlmiş müəyyən araşdırmalar bir qədər sistemsizliyi ilə seçilir. Bu mənada müxtəlif risklərin korrelyasiyasının ciddi təhlili və beynəlxalq münasibətlərin proqnozlaşdırılmasına proyeksiyası çox böyük elmi və praktiki maraq kəsb edir. Bu baxımdan, hazırkı məqalədə bir sıra ekoloji problemlərin, xüsusən də iqlim dəyişmələrinin və bəzən onlara qarşı mübarizə tədbirlərinin müxtəlif sosio-

iqtisadi, humanitar nəticələrinin siyasi təhlükəsizlik sisteminə və beynəlxalq münasibətlərə neqativ təsirləri, habelə bu risklərin iqlim münaqişələrinə gətirib çıxarması şəraiti və halları araşdırılır. Bundan əlavə, məqalədə Cənubi Qafqaz regionunda iqlim münaqişələrinin başvermə risklərinin təhlilinə geniş yer verilir, onların qarşısının alınması üzrə beynəlxalq əməkdaşlıq institutlarının rolu və əhəmiyyəti barədə bəhs edilir.

Beləliklə, yuxarıda qeyd olunan risklər sırasında qlobal ekoloji təhlükələr, xüsusən qlobal və ya regional ekoloji deqradasiya, ətraf mühitin çirkləndirilməsi, habelə qlobal istiləşmə ilə bağlı problemlər onların nəticələrinin sosial-iqtisadi, humanitar cəhətdən ağırlığı, bu nəticələrin əsasən kaskad (yəni, onların sinxronluğu və bir-birini gücləndirməsi) xarakteri daşıması və qısa müddətdə aradan qaldırılmasının qeyri-mümkünlüyü baxımından bəşəriyyət üçün daha təhlükəli hesab olunmaqdadır. Günümüzdə bu problemlərin müxtəlif təzahürlərini həm müharibə, həm də dinc dövrdə, daha intensiv və bəzən dağıdıcı formalarda görmək, insan fəaliyyətinin ən müxtəlif fəaliyyət sahələrinə sirayət etdiyini müşahidə etmək olar. Bütün bu məsələlər beynəlxalq münasibətlər kontekstinə də tədricən yeni forma verir, onu elmi-praktik cəhətdən yeni məzmunla zənginləşdirir.

Bu mənada, ekoloji risklər və müvafiq problemlər artıq beynəlxalq münasibətlər sisteminə xeyli dərəcədə nüfuz edərək, bu sistemi institusional, nəzəri və praktiki anlamda yeniləməkdədir, hətta artıq beynəlxalq münasibətlərin, bir sıra klassik anlayışların, konsepsiya və yanaşmaların yenidən nəzərdən keçirilməsinə ehtiyac yaratmışdır.

Qeyd olunan qlobal çağırışlar fonunda hazırda ənənəvi hərbi-siyasi təhlükəsizlik məsələləri ilə yanaşı, ekoloji təhlükəsizlik məsələləri, müvafiq institutlar, bu istiqamətdə əməkdaşlıq əlaqələrinin genişlənməsi, yəni ümumən ekoloji diplomatiyanın əhəmiyyətinin getdikcə artması müşahidə olunmaqdadır. Bununla bağlı, istər qlobal, istərsə də regional siyasi aktyorların ekoloji təhlükəsizlik məsələlərinə və müvafiq risk və təhlülkələrə xüsusi önəm verməsinə və doktrinal anlamda bu risklərin gələcək inkişaf dinamikasının modelləşdirilməsinə, o cümlədən ekoloji və siyasi təhlükəsizlik məsələlərinin hazırkı və gələcəkdəki korrelyasiyanın ciddi təhlilinə ehtiyac vardır. Belə ki, hazırkı məqalədə də bəhs edildiyi kimi, ekoloji təhlükəsizlik məsələlərinin gələcəkdə geosiyasi problemlərdə müəyyənedici və ya ən azından mərkəzi rol oynayacağının, klassik təhlükəsizlik formatını dəyişdiyi kimi, beynəlxalq münasibətlər sistemini də xeyli transformasiyaya uğradacağının konturları artıq indidən görünməkdədir.

**Ədəbiyyat:**


1. Ələkbərov U. İnklüziv inkişafın idarə edilməsinin əsasları. Ali Məktəblər üçün dərslik. Bakı: Təhsil, 2018, 216 s.
2. Homer-Dixon, 1991; Hendrix & Glaser, 2007; Raleigh & Urdal, 2007.
3. Humbatov F. "Environmental and regional security issues in the South Caucasus", "İnsan və biosfer" (MaB, UNESCO) Azərbaycan Milli Komitəsinin əsərləri. Bakı: Təhsil, 2021, 352 s., s. 197-214.
4. Humbatov F. Environmental crimes of Armenia against the Republic of Azerbaijan, South Caucasia in the context of social, economic and political progress in the post-cold war era, Turkiye, Iksad Publications-2021, p.354, chapter VII, pp. 231-264.
5. Humbatov F. Low emission development outlook and its role in the environmental security system of the Republic of Azerbaijan, Baku, "Tuna" PPC LLC, 256 p.
6. Hümbətov F. Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik sisteminə real təhdid kimi qlobal iqlim dəyişmələri ilə mübarizə məsələləri. "Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə" elmi-nəzəri jurnal, 2021,№3 (75), s. 159-176
7. Hümbətov F. Müasir beynəlxalq münasibətlərdə enerji diplomatiyası. Bakı, 2018, 356 s.
8. Hümbətov F. Beynəlxalq münasibətlər kontekstində ekoloji təhlükəsizlik məsələləri və müasir çağırışlar. "Dövlət İdarəçiliyi: Nəzəriyyə və Təcrübə" elmi-nəzəri jurnal, 2022,№ (80), s. 177-188.
9. Humbatov F. Low emission development prospective of the Republic of Azerbaijan and regional environmental security challenges". Public Administration: theory and practice. Scientific and theoretical journal, 2023, №1 (81), Baku, Publication of Academy Public Administration under the President of the Republic of Azerbaijan, pp. 213-230.
10. Кукушкина А.В. Международно-правовые аспекты экологической безопасности // Московский журнал международного права, 1993, № 2, С. 59.